# Litva şirkəti ilə "Araz Vadisi İqtisadi Zonası"nda həyata keçirilən mebel klasteri layihəsi müzakirə olunub

**İqtisadiyyat naziri Mikayıl Cabbarov Litvanın "Dominari" şirkətinin nümayəndələri ilə görüşüb.**



Nazirlikdən AZƏRTAC-a bildirilib ki, şirkət təmsilçilərinə ölkəmizin əlverişli biznes mühiti, iqtisadiyyatın şaxələndirilməsi istiqamətində görülən işlər barədə məlumat verilib.

Litva ilə iqtisadi tərəfdaşlığın inkişafı, biznes subyektləri arasında qarşılıqlı faydalı əlaqələrin, o cümlədən investisiya əməkdaşlığının genişləndirilməsinin önəmi vurğulanıb. Tərəflər həmçinin işğaldan azad olunmuş ərazilərin investisiya potensialı, şirkət tərəfindən Cəbrayıl rayonunda "Araz Vadisi İqtisadi Zonası" sənaye parkında həyata keçirilən mebel klasteri layihəsi barədə müzakirələr aparıblar.

Azərbaycan. - 2025.- 20 may (№ 103).- S.4.